# Sankt-Peterburq şəhərinin qubernatoru Bakıdakı Müqəddəs Miradaşıyan Qadınlar Kilsəsində olub

Azərbaycanda rəsmi səfərdə olan Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenkonun rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 1-də Bakıdakı Müqəddəs Miradaşıyan Qadınlar Kilsəsində olub.

Mefodi ata bu kilsənin tarixi barədə qonaqlara məlumat verib. Bildirilib ki, kilsə 1907-ci ildə xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına tikilib. 2001-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu dini məbədin yenidən qurulmasından sonra açılış mərasimində iştirak edib. Beləliklə, burada Azərbaycanda yaşayan pravoslav xristianların dini mərasimləri sərbəst şəkildə icra etmələri üçün hər cür şərait yaradılıb.

Sonra Rusiya nümayəndə heyətinin üzvləri Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəni Mərkəzi ilə tanış olublar. Mərkəzin dördmərtəbəli binasında dua otağı, müxtəlif tədbirlərin, o cümlədən konfrans və seminarların keçirilməsi üçün zal fəaliyyət göstərir. Burada kilsə təhsili verən bazar günü məktəbinin fəaliyyəti üçün də şərait yaradılıb.

Mərkəzdə yeparxiya üçün, kanonik mərasimlər, katexizasiya, habelə kilsə mediası üçün ayrıca otaqlar nəzərdə tutulub. Burada həmçinin kitabxana və qonaqlar üçün xüsusi otaqlar vardır.

Mefodi ata Azərbaycanda xristianlığın tarixi barədə söhbət açıb. O qeyd edib ki, Prezident İlham Əliyev ölkədəki bütün dini icmalara hərtərəfli dəstək verir. Mefodi ata vurğulayıb ki, Azərbaycan tolerant və azad dövlətdir, burada bütün millətlərin və dini məzhəblərin nümayəndələri əmin-amanlıq şəraitində yaşayır.

Georgi Poltavçenko kilsənin arxitekturasına və daxili tərtibatına heyran olduğunu bildirib. Görüşün sonunda qubernatora xatirə hədiyyələri və müqəddəs apostol Varfolomeyin ikonası təqdim edilib.

***AZƏRTAC***